

Gecə saatlarında Marneuli rayon böyük Bəylər kəndində Əmirxan Sultanova məxsus ev yanaraq külə dönüb.

24News.ge xəbər portalına şahidlərin verdiyi məlumata görə hadisə 23noyabr gecə saat 00.00 radələrində baş verib. Yanan evin sahibləri türkiyədə yaşasalarda evdə onların qızı yaşayırmış lakin yanğın başlayan zaman Ə.Sultanovun qızı evdə olmayıb, yanğın zamanı evin içindəki əşyaları yanaraq külə dönüb.

Kənt sakinlərinin verdiyi məlumatda oda bildirilir ki, yanğın baş verən zaman 112 çağrı xidmətinə zəng edilib, lakin yanğın söndürənlər evin dam örtüyü yanıb çökəndən sonra hadisə yerinə gəliblər.

Hazırda araşdırma aparılır, ilkin ehtimala görə yanğın elektirin naqillərində olan boşluq nəticəsində baş verib.

https://youtu.be/Xoc44B3Yw3k